*İslam SADIQ*

# 20 YANVAR

*Poemadan parçalar*



Dədəm Qorqud çatan tonqal
Çatılıbdı burda yenə.
Alovları dil açır ki,
Yağı gəlir yurda yenə.

“Od oğluyam” deyib kimsə,
Ovucunda öpür közü.
Silahımız vətən eşqi,
Gülləmiz də vətən sözü.

Təpə-dırnaq bayatıyla
Silahlanan dili görmür.
Təpə-qırnaq qeyrətiylə
Silahlanan eli görmür.

Kim haqlıdı, kim haqsızdı,
Kar eşidir, kor anlayır.
Zalım oğlu nə qanmazdı,
Can deyirik, çor anlayır.

Xoş gəlibdi duysa məni,
Xoş gəlibdi saysa məni.
Nə yerinə qoysa məni,
Onda gələn xoş gəlməyib.

Tanklar çıxır kazarmadan,
Sıralanıb üçü gəlir.
Nifrət yağır üz-gözündən,
Kinlə dolub içi, gəlir.

Güllə qabağına sözlə gəlirəm,
Bir qalamlıq odla, közlə gəlirəm.
Gözlə, yağı düşmən, gözlə, gəlirəm,
Öz evimdə mənə meydan oxuma!

Gəl ocaq başına, qızın bir azca,
Bu qandan, qadadan yazın bir azca.
Qulaq as səsinə sazın bir azca,
Nə pis oxuyursan, dayan, oxuma!

Əlini sıxmağa əl uzadıram,
Bircə addım bəri gəl, uzadıram.
Tankın lüləsinə gül uzadıram,
Atdığın güllədən utan, oxuma!

Güllələr uçuşur belədən-belə,
Biri sağ qolumu yalayıb keçir.
Biri yanımdakı cavan oğlanı
Qızıl al qanına bulayıb keçir.

Sıralanıb durna qatarı kimi
Sağımdan, solumdan ötür güllələr.
Biri üzüqoylu yatır torpağa,
Birinin köksündə itir güllələr.

# İKİNCİ HİSSƏ

**İlham Allahverdiyev**

Vətən can üstədi,
Canım dedi ki,
Bağlıdı əvvəlim, sonum Vətənə!
Vətən can istədi, bir can nədi ki,
Qıymamaq olarmı onu Vətənə?!

Əzizim buta-buta,
Xalları qoşa buta.
Ölək, gülüm, bir gündə,
Qoyulaq bir tabuta.

**Fərizə Allahverdiyeva**

Ürəyimi sənə verdim sevmişkən,
Boş sinəm sevinclə dolurmu, dolmaz.
Vətənim səniydin, özün demişkən,
Vətənsiz yaşamaq olurmu, olmaz!

Dəstinə gəl,
Dur, canım qəsdinə gəl.
Özümə yetəmməsən,
Qəbrimin üstünə gəl.

**Sürəyya Babayeva**

Süzüb hardan gəldi güllə bir anda,
Evimin içində haqladı yaman.
Su içən adamı vurmur ilan da,
Niyə vurdun məni su içən zaman.

Göz yuvası,
Sürmədi göz yuvası.
Hər kim yuva dağıdır,
Dağılsın öz yuvası.

**Vera Bessantina**

Ürəyi daş adam, qəlbi daş adam,
Görən bir yol gəlib daşıma baxıb?!

Öyünüb deməsin bir parça odam,
Utansın, utansın yaşıma baxıb!

Əzizinəm, doldular,
Kimlər yaşa doldular.
Qönçə idi min arzum,
Açılmamış yoldular.

**İlqar İbrahimov**

Getməz qulağımdan bu güllə səsi,
Sən dolan sevdaya dolmaram daha.
Adam öldürürsə əsgər gülləsi,
Mən əsgər olmaram, olmaram daha.

Mən aşıq, kabab ağlar,
Köz yanar, kabab ağlar.
Körpə balam gedibdi,
Ciyərim kabab ağlar.

**Larisa Məmmədova**

Yolundu güllərim hey ləçək-ləçək,
Özüm birini də üzə bilmədim.
Əsdi acı yellər,
Mən qönçə çiçək,
Bu acı yellərə dözə bilmədim.

Şaftalıyam, kalam mən,
Dilim yoxdu, lalam mən.
Zalım fələk qoymadı,
Arzu-kamım alam mən.

**Zöhrab Abbasov**

Vətənim can umur,
Canım yox bəyəm,
Ağlama, ağlama, ana, verirəm.
Yaşasın, yaşasın Vətənim deyə,
Mən qalan ömrümü ona verirəm.

Aşıq o yanda mələr,
Gedib o yanda mələr.
Analar balasını
Qəbrə qoyanda mələr.

**İsbəndiyar Zülalov**

Canım bu torpağın öz butasıdır,
Butamın qoynunda yatmasam əgər...
Mənim harayıma kim çatasıdı,
Vətənin hayına çatmasam əgər.

Mən aşığam, qalamı,
Yollar qanmı, lalamı?!
Mən saxlaram Vətəni,
Vətən saxlar balamı.

**İzzət Həmidov**

Sirrimi açdığım, sirdaş dediyim,
Yoxsa durub mənim qəsdimə, gəlir.
Dünən qucaqlayıb qardaş dediyim,
Bu gün yağı kimi üstümə gəlir.

Şəhərin yastı yolu,
Su gəldi, basdı yolu.
Getdim düşmən üstünə,
Qan gəldi, basdı yolu.

**Adsız Adam**

Atası, anası kimiydi axı,
Öz adını bilən varmı, söyləsin.
Köksündə aparıb ən böyük dağı,
Məzarı özünə darmı, söyləsin.

Əlimdə çatım yoxdu,
Altımda atım yoxdu.
Üstümdə bircə daş var,
Onda da adım yoxdu.

**Vaqif Məmmədov**

Cıdır meydanıdır Bakı elə bil,
Sıraya düzüblər tankları burda.
Yiyəsiz olsa da, oğulsuz deyil,
Ölərəm,Vətəni qoymaram darda.

Üzmə məni,
Kədərli süzmə məni.

Bu qədər həsrət olmaz,
Yazığam, üzmə məni.

**Elçin Qeybullayev**

Divlər yolub tökür bağçanı, bağı,
Sinəmə sığmayır bu saat ürək.
Bakıda Bakılıq qalmayıb axı,
Bakını özünə qaytarım gərək.

Vətən ağlar,
Köynəyi kətan ağlar.
Elə dağ çəkdi düşmən,
Mən sussam,Vətən ağlar.

**Ülvi Bünyadzadə**

Qələm görüb qorxur əlim hələ ki,
Qorxur torpağım da, daşım da hələ.
Qorxa-qorxa dinir dilim hələ ki,
Öz əlimdə deyil başım da hələ.

Adadı,
Oxuduğum odadı.
Taxtda bir şah əyləşib,
Hər işi qan-qadadı.

**Fəridə Abbasova**

Çağırın qəbrimin üstünə gəlsin,
Bir ana ömrünə qıyan ağlasın.
Ağlamaq necolur, bilmirsə bilsin,
Balamı anasız qoyan, ağlasın.

Eləmi balan ağlar,
Ah çəkib balan ağlar.
Ahı ərşə dirənər,
Körpəcə balan ağlar.

**Yusif Sadıqov**

Bu gün vaxtı çatıb dil açıb deyim:
-Gözümün qarası, ağı Vətəndi!
Mən ölmüşəm bəyəm,
Mən yoxam bəyəm,
Gəlib at oynadır yağı Vətəndə?!

Əzizim, daşa dağlar,
Baxtıma daş adaxlar.
Yüz tutun məni daşa,
Daş neylər daşa, dağlar.

**İsmayil Mursaqulov**

Bəlkə çatıb deyə ömrün son anı,
Gəldi qulağıma hardansa bir səs:
Alimin qələmi – şəhidin qanı,
Alimin özü də şəhid olsa bəs?!

Bu dağlar, qanlı dağlar,
Laləli, qanlı dağlar.
Öləndə qəbrim üstdə
El ağlar, qanlı dağlar.

**Svetlana Məmmədova**

Gözü dörd olub ki, kimisə vursun,
Yol pusur gecənin aydınlığında.
Mənim alimliyim bir yana dursun,
Daşı yumşaltmadı qadınlığım da.

Ün gəldi,
Qulağıma ün gəldi.
Ağla, qərənfil, ağla,
Ağlamalı gün gəldi.

**İbrahim İbrahimov**

Nə qədər suvarsa qılıncı qanla,
Alimi qorudu xanların çoxu.
Necə danışasan belə nadanla,
Tuşlayıb sinəmə sapladı oxu.

Dağlara qar düşübdü,
Gör nə hamar düşübdü.
Qəbrimi ellər qazıb,
Necə də dar düşübdü.

**Ferqat Tuktamışev**

Burda mənə qərib deməyin, dostlar,
Bura türk yurdudu,
Türk torpağıdı,

Vətən deyib yüz il yaşamaq olar,
Bu gün Vətən deyib ölmək çağıdır.

Qazan ağlar,
Od yanar, qazan ağlar.
Burda bir qərib ölüb,
Qəbrini qazan ağlar.

**Mircamal Əbülfət**

Yummadı bu gecə gözünü Bakı,
Güllə səslərindən perikdi quşlar.
Bu gün qanla yudu üzünü Bakı,
Qanla suvarıldı ağaclar, daşlar.

Ağlaram ozan olsa,
Gül solub xəzan olsa.
Bağlanıb dastan olar
Dərdimi yazan olsa.

**Əyyub Abdullayev**

Mənim əlimdə gül,
Onda avtomat,
Durmuşuq üz-üzə, göz-gözə burda.
Güllər güllələnir yenə çathaçat,
Qan çıxır, qan çıxır, qan dizə burda.

Yaşıldır başın, ördək,
Qaradır qaşın, ördək.
Həmişə cüt gəzərdin,
Hanı yoldaşın, ördək.

**Azər Ələkbərov**

Vətən bu gün can istəyir, can nədi,
Duzu verin qurbanlıqtək yalayım.
Vətən bu gün qan istəyir, qan nədi,
Damarımı damarına calayım.

Əzizim, bu canı da,
Gəl apar bu canı da.
Torpağım can istədi,
Əsirgəməm canı da.

**Telman Bağırov**

Sənin Vətənini Vətən sayırdım,
Qardaş da deyirdim özünə sənin.
Mən elə düşünür, elə qanırdım,
Yaman aldanmışam sözünə sənin.

Bu dağlar, hasar dağlar,
Qar yağar, basar dağlar.
Qurusun mənim dilim,
Səni nə hasand ağlar.

**Mehman Muradov**

Alışdıq bu odda,
Yandıq bu odda,
Qara baxtımıza sarı düşəndən.
Düz demişdi babam Dədə Qorqud da:
Dost olmaz, dost olmaz qarı düşməndən.

Hər aylar,
Hər fəsillər, hər aylar.
Gözüm gözünə həsrət,
Könlüm səni haraylar.

**İlkin Cavanşirov**

Unutmaz bu torpaq min il ötsə də,
Babam Cavanşirin adı yaşayır.
Min ocaq yansa da,
Sönüb getsə də,
Qəlbimdə bir eşqin odu yaşayır.

Əzizim, ilkin,
Adımı qoydun İlkin.
Vətən deyib ölməyə
Necə getməzdim ilkin.

**Azad Mirzəyev**

Mən azad doğuldum,
Adım da Azad,
Azad yaşamadım ancaq dünyada.
Ölsəm, Vətən qalsın yadımda azad,
Kaş sönməsin bu od, ocaq dünyada.

Əzizim balabanı,
Yaxşı çal balabanı.
Hamının balası gəldi,
Bəs mənim balam hanı?

**Yanvar Nəsirov**

Ötən günlərimi tez-tez anırdım,
Qolumdan tutaraq ayağa durdun.
Mən səni özümə arxa sanırdım,
Sən məni, sən məni arxadan vurdun.

Yanvarda mən,
Doğuldum yanvarda mən.
Bu nə gəliş-gedişdi,
Gedirəm yanvarda mən.

**Vaqif Mirzəyev**

Dindirsəm, danışar Qorquddan, inan,
Ocaq Vətənimdə, köz Vətənimdə.
Gücüm torpaqdadı,
Yağı heç zaman
Mənə bata bilməz öz vətənimdə.

Əzizinəm, yas öyü,
Yas otağı, yas öyü.
Dünən evimdə toydu,
Bu gün olub yas öyü.

**Andrey Nişenko**

Quduzu, qulduru ana ha doğmur,
Atası, anası, qardaşı olmur.
Bir yol qəzəbini, hirsini boğmur,
Sirri ölümdüsə, sirdaşı olmur.

Maralın gözü qanlı,
Sinəsi, dizi qanlı.
Aləm qana bələndi,
Balası, özü qanlı.

**Yusif Qasımov**

Mən oğlu olmaram kölə Vətənin,
Kölənin ağzının dadı varmı ki?!

Yolunda ölmüşəm elə Vətənin,
Daha ağlamağın adı varmı ki?!

Nazbalış baş altdadır,
Ala göz qaş altdadır.
İstərəm durum gəlim,
Qollarım daş altdadır.

**Müşfiq İsayev**

Bura Çənlibeldi, bənd-bərəsi var,
Koroğlu qıy vursa,
Qulaqlar batır.
Hər qaya bir qala,
Hər daş bir divar,
Hər kolun dalında bir Eyvaz yatır.

Mən aşığam, gülmədi,
Göz yaşımı silmədi.
Cumdu gülləyə sarı,
Uşağıydı, bilmədi.

**Rüstəm Əliyev**

Qana susamısan, a qansız əsgər,
Al mənim qanımı iç, içə bilsən.
Vətənin önündə səngərəm, səngər,
Adlayıb üstümdən keç, keçə bilsən.

Lələ haray,
El haray, lələ haray.
Vətənə yağı gəldi,
Dağıtdı, lələ haray.

**Xəlqan Əliyev**

Bu gecə Bakıda tonqallar yandı,
Mənim and yerimdi bu od, bu ocaq.
Birinci Vətəndi,
İkinci candı,
Ölərəm, bu anddan dönmərəm ancaq.

Əzizim, Vətən səni,
Unutmaz Vətən səni.
Öldün Vətən yolunda,
Ağlayır Vətən səni.

**Müzəffər Həsənov**

Başına götürdü tüstü gecəni,
Dedim bu dünyanın sonudu, sonu.
Mən oğul gəzirəm,
Oğlum da məni,
Nə o məni tapdı, nə də mən onu.

Əzizim, bu da məni,
Haxladı qada məni.
Adını qardaş qoyub,
Atdılar oda məni.

**Aslan Ağaverdiyev**

Burda ağlayacam,
Burda güləcəm,
Ömrümün payızı, yazı Vətəndi.
Burda doğulmuşam, burda öləcəm,
Alnıma yazılan yazı Vətəndi.

Haray, Aslanım, haray,
Hanı Aslanım, haray.
Qara verin bağlayım,
Qoyun yaslanım, haray.

**Rahim Məmmədov**

Bir zaman baban da dolaşıb burda,
Yaxşı tanıyıram səni, ay dəli.
Babamın qanına bulaşıb burda
İki yüz il əvvəl babanın əli.

Əzizim, ulu dağlar,
Çeşməli, sulu dağlar.
Burda bir igid ölüb,
Göy kişnər, bulud ağlar.

**Zaur Ələsgərov**

Şirin yuxudayam burda elə bil,
Nəsə sıxır məni, qəlbim dözməyir.
Bura haradısa, Qarabağ deyil,
Bu saat Qarabağ məni gözləyir.

Bala şirin,
Kim qatıb bala şirin.
Can hər şeydən şirindi,
Candan da bala şirin.

**Cavad İsmayılov**

Sətirləndi yenə könlümün səsi,
Nöqtə qoymaq vaxtı işıqlar söndü.
Köksümə sancılan zalım gülləsi
Şeirin sonunda nöqtəyə döndü.

Qəmlidi,
Yer də, göy də qəmlidi.
Bu qəbri soran olsa,
Deyin Cavad Qəmlidi.

**Elçin Bəxşəliyev**

Qanımla boyanıb üçrəngli bayraq,
Onu tapdalayan qan qusa bilər.
Vətənləşib mənim canımla torpaq,
Onu tapdalayan can qusa bilər.

Mən aşıq, bular imiş,
Cana od salar imiş.
Əzrayıl yalanıymış,
Can alan bular imiş.

**Mirzə Qəniyev**

Sevdik gizli-gizli bir-birimizi,
Mən Vətəni sevdim, Vətən də məni.
Silinməz torpaqdan qanımın izi,
Xatırlayın burdan ötəndə məni.

Bir aydı,
Ömür bir gün, bir aydı.
Sağalmağa umud yox,
Can verirəm bir aydı.

**Aleksandr Semyonov**

Güllələr uçuşdu bir-bir yanımdan,
Canıma od saldı can-can deyənim.

Qanı qanımdandı, canı canımdan,
Qanıma susadı bəs niyə mənim?!

Nəm ağlar,
Bulud gələr, nəm ağlar.
Qəribi qürbət eldə
Kim ağlasa, kəm ağlar.

**İlqar Əbilhəsənov**

Qoymaz yatam barmağımın ağrısı,
Çətin bu gün düşmənimi güldürüm.
Yolur yenə bağı alma oğrusu,
Gedirəm ki, sarı divi öldürüm.

Qan olar,
Qada olar, qan olar.
Bir elə yağı girsə,
Talan düşər, qan olar.

**Fuad Mövludov**

Gəmilər fit verir,
Ulayır Xəzər,
Tanklar nərildəyir yollar boyunca.
Zalımın gülləsi qoysaydı əgər,
Sevərdim Vətəni mən də doyunca.

Mən aşıq, gül anbarı,
Gül əkdim, gül anbarı.
Zalım düşmən qoymadı
Doyunca güləm barı.

**Aleksandr Marxevka**

Sən Şaşa, mən Şaşa!
Qardaşıqmı, yox!
Birimiz öldürən, birimiz ölən!
Yaralar sarıyan bir həkiməm, bax,
Sənsən bədənimi yüz yerdən dələn.

Dağlarda lala yalqız,
Gül qoşa, lala yalqız.
Qorxuram qərib ödəm,
Məzarım qala yalqız.

**Boris Yefimov**

Böyükağa qoydum öz adımı mən,
Bakı ağlasaydı, heç gülərdimmi?!
Görən Boris qalsam -
Deyirəm hərdən,
Rusun gülləsinə tuş gələrdimmi?!

Yük üstündə pərdə mən,
İndi düşdüm dərdə mən.
Ruhum göylərdə gəzir,
Necə yatım yerdə mən.

**Oleq Yusupov**

Ruhumla bağlıyam bu yerə, göyə,
Mən də türk oğluyam, tataram, Bakı.
Başından tük əskik olmasın deyə,
Canımı canına qataram, Bakı.

Əziziyəm, dost aşı,
Dost çörəyi, dost aşı.
Düşmənin gülləsindən
Yaman olur dost daşı.

**Vladimir Xaritonov**

- Sən rus, mən rus!
Heç kim bunu unamır,
Rus da rusa durub güllə atarmı?!
- Mənim gülləm urus-murus tanımır,
Rus olmağın gör dadına çatarmı?!

Qəsdimə duran urus,
Ərimi vuran urus.
Mən daha urus döyləm,
Anla urus, qan urus.

**Yan Meyeroviç**

Yaman ağır olur qardaş şilləsi,
Torpaq ləkə-ləkə,
Köksüm xal-xaldı.
Yaxaladı məni rusun gülləsi,
“Mən də rusam” sözü dilimdə qaldı.

Bala dərdinə,
Bal qatdı bala dərdinə.
Balamı məndən alan
Düşsün bala dərdinə.

**Valeriy Boqdanov**

Yaşım az olsa da,
Bu dünyada mən
Ölüm də görmüşdüm, qan-qada da mən.
Bu gecəki ölüm başqa ölümdü,
Qardaş gülləsilə ölmək zülümdü.

Atam mənə ad qoydu,
Doğulmamış ad qoydu.
Üzünü görəmmədim,
Ürəyimə od qoydu.

**Ağanəzər İsrailov**

Ürəyim sinəmdən çıxıb o gündən
Qəbrimin üstündə döyünür indi.
Sevinə-sevinə baxıb o gendən
Azad Vətənimlə öyünür indi.

Bala sına,
Bal sına, bala sına.
Soruşur, nə deyim mən
Balamın balasına.

**Alla Nikolayenko**

Mən bahar gülüydüm,
Tuş gəldim kimə,
İnsafsız-insafsız yoldular məni.
İnsan ha deyilmiş bunlar sən demə,
Tapdayıb keçdilər çölü, çəməni.

Əzizinəm, oyanmaz,
Hamı yanar, o yanmaz.
Gözü qanlı yağıya
Dayan desən, dayanmaz.

**SONUC**

Dururam önündə burda hər daşın,
Düşmən hiyləsinə daha uymuram.
Dalğın baxışından hər gözün, qaşın
Nələr anlamıram, nələr duymuram.

Bir ağ bulud gəzir göyün üzündə,
Yoxsa ayın, günün göz yaşlarıdır.
Şəhid məzarları – mənim gözümdə
Düşmənə sevginin baş daşlarıdır.

Ölüm saçmırdımı, qoxumurdumu
Onda Sisyanovun nəfəsi bəyəm!?
Bir ölüm nəğməsi oxumurdumu
Dünən Sisyanovun nəvəsi bəyəm!?

Neçə-neçə xanlar mən, mən dedilər,
Açıb qucağını yağıya, yada.
Doğma qardaşına düşmən dedilər,
Gör nələr olurmuş, nələr dünyada!?

Gözümün önündə qanlı səhnələr,
Ürək yuvasına sığışmır yenə.
Qalır yaddaşımda gör nələr, nələr,
Anıram, yanıram mən dönə-dönə.

Güllənin gözünü çoxdan ovmuşuq,
Yuxunu qatmasın güllə səsləri.
Vətəndən biryolluq elə qovmuşuq
Əlləri qanına batan kəsləri.

Daha yadın qapaz altı deyilsən,
Sevmirik hər yoldan ötəni indi.
Vətənin qoynunda rahat uyu sən,
Qardaşın qoruyur Vətəni indi.

Bir zaman sinəndə ürəyin sənin
Azadlıq eşqilə eləmi dindi.
Azad yaşamadın,
Azad Vətənin
Azad qucağında yatırsan indi.